**RƏSMİYƏ TAĞIYEVA**
resmiye_tagiyeva@yahoo.com
*Naxçıvan Dövlət Universiteti*

# MİLLİ GEYİMLƏRİN KONSTRUKSİYA EDİLMƏSİ TEXNOLOGİYASI

*Geyim insanın bədənini ətraf mühitdəki isti, soyuq, toz və s. kimi təsirlərdən qorumaq üçün yaradılmışdır. Geyimlər, əsasən, təbii və süni materiallardan hazırlanır. Geyimlər insan bədəninin mühafizə vasitəsi olmaqla yanaşı, həm də bəzək vasitəsi hesab edilir. Ona görə də cəmiyyətin hər bir tarixi inkişaf mərhələsindən keçdikcə, insanların dünyagörüşü dəyişdikcə hər bir mərhələdə geyimlərin formaları da dəyişir.*

*Məqalədə milli geyimlərin konstruksiya edilməsi, onların hazırlanması, bu geyimlərin üzərinə bəzək məqsədilə tikilən naxışların texnologiyasından bəhs edilmişdir. Burada məqsəd milli geyimlərin növlərini, bəzək əşyalarının zənginliyini, baş geyimlərinin növlərini araşdırıb gələcək nəsillərə çatdırmaqdır.*

*Eləcə də məqalədə Naxçıvan milli geyimlərinin inkişaf etdiyi, qorunub saxlanıldığı və bir mədəniyyət nümunəsi olaraq təbliğ edildiyi haqqında söhbət açılmışdır. Bu qədim yurd yerində müasir dövrün geyimləri ilə yanaşı, tarixi geyim tərzlərinin birgə ritmini də izləmək mümkündür. Naxçıvanın milli geyimlərinin qədimdən biçilib-tikilməsi, geyimlərinin üslub xüsusiyyətləri ilə digərlərindən fərqlənib.*

***Açar sözlər:*** *Milli, bəzək, geyim, naxış, papaq, yaylıq*

Azərbaycanda geyim mədəniyyəti tarixin bütün inkişaf dövrlərində inkişaf edib. Tarixi dövrlər keçdikcə geyimlər məişətimizdəki ənənələrlə uzlaşdırılıb, geyimlərin müxtəlif, fərqli növləri meydana çıxmağa başlayıb.

Geyimlər yaşadığı mühitin şəraitinə, hər xalqın öz milli zövqünə görə xalqın mədəniyyətində xüsusi yer tutur və həmin xalqın milli-mənəviyyatından xəbər verir. Azərbaycan xalqı da qədim keçmişdən özünün milli xüsusiyyətlərinə xas olan geyimlərini yaratmış, zaman keçdikcə bu geyimlər cəmiyyətin hər bir tarixi inkişaf mərhələsindən keçmiş, insanların dünyagörüşü dəyişdikcə hər bir mərhələdə geyimlərin formaları da dəyişmişdir. Bu geyimlər xalq tərəfindən qorunaraq, nəsildən-nəsilə ötürülərək müasir dövrümüzədək gəlib çatmışdır.

Geyimlərin hazırlanmasında materialın düzgün seçimi çox əhəmiyyətlidir. Düzgün seçilən materialın tərkibi, tikiləcək geyim növünün keyfiyyətli, göz oxşayan alınmasının əsl səbəbidir.

Qadın və uşaq geyimlərinin tikilməsində isə daha çox al-əlvan rəngli parçalardan istifadə olunub. Hətta qadın və uşaq geyimlərinin üzərləri zərif işləmələri olan bədii tikmə nümunələri ilə bəzədilirdi.

Azərbaycan qədim milli qadın geyimlərində, adətən innabı, yaşıl, gümüşü rənglərə üstünlük verilirdi. Geyimlərin bütün elementlərinin rəngi dəqiqliklə və bir-birinə uyğunlaşan şəkildə zövqlə seçilirdi. Qadın geyimlərinin tikilməsində daha çox al-əlvan rəngli parçalardan istifadə olunub. Hətta qadın geyimlərində ətəklər, qolların ağzı, arxalıqların kənarları zərif bədii tikmə nümunələri ilə işlənirdi. Tumanın ətəyi xüsusi muncuqlarla, pilləklərlə, haşiyələrlə zövqlə bəzədilirdi.

Geyimlərdə zərif, parlaq bəzəklərdən, zəncirlərdən, piləklərdən istifadə ilə yanaşı, muncuqlu tikmə, burma metallarla tikmələr və ümumiyyətlə, bütün tikmə növlərindən istifadə edilirdi. Bu da hazırlanan geyimlərin zəngin və gözəl görünüşündən, mənsub olduğu xalqın zövqünün nə qədər mükəmməl olduğundan xəbər verirdi. Ümumiyyətlə, geyim dəstləri öz göz oxşaması, gözəlliyi, ciddiliyi və ağırlığı ilə ətraf mühitlə geyimi daşıyan arasında bir sərhədə çevrilirdi.

Geyim dəstlərinin ayrı-ayrı hissələri güllü parçadan tikilirdisə də, mütləq sakit rənglər seçilirdi. Arxalığın və ya küləcənin də bütün tikiş boyunca zərif bəzəklər tikilirdi. Bu məqsədlə, əsasən, zəncir bəndlərdən, haşiyələrdən, piləklərdən istifadə edilirdi.

Geyimlərdə bədii tikmələrdən istifadə edilərkən, əsasən, nəbati və həndəsi naxışlar işlədilirdi.

Azərbaycanda geyim hazırlamaq üçün xammallar, əsasən, yun və ipək sayılırdı. Lakin bunlarla yanaşı kətan, pambıq, dəridən də istifadə edilirdi.

Orta əsr mənbələrində həm qadın, həm də kişi geyim növləri - arxalıq, köynək, şalvar, kürk, çuxa, əba, qəba, cübbə, əmmamə, papaq, çarıq, corab, xətayi, ləbbadə, nimtənə, çalma, qaftan və s. adlara rast gəlinir [3, s.122].

Naxçıvan geyimlərinin içərisində arxalıq deyilən geyim çox sadə görünüşlü tikilməsi ilə digər bölgələrin geyimlərindən fərqlənirdi. Olduqca sadə biçimlidir. Qolları sadə, düz biçilirdi. Köynək və tumanın biçimi və tikiş texnologiyası başqa zonalarda olduğu kimi idi. Arxalığa bəzən küləcə deyilir, belə ki, arxalıq uzun olarsa, beldən kəsik, qısa olarsa, bütün kəsilir. Belə olan halda yanlarında kəsik və parça çıxıntısı qoyulur. Uzunqollu arxalıqların ön yaxası bir-birindən xeyli aralı olurdu ki, bu halda zəngin sinəbəndlər, sərmələr, gərdənliklər və s. ilə tamamlayırdılar. Arxalıqların çoxu adətən ipək, atlas parçalardan tikilirdi. Zadəgan ailələrin xanımlarının sinə bəzəkləri çənədən belə qədər silsilə şəklində düzülürdü. Adətən soyuq havalarda arxalığın qolunun düymələri bağlanır, üstündən küləcə geyilirdi. Küləcə Naxçıvan zonasında geniş yayılmış mövsümi sırıqlı və astarlı qadın çiyin geyim növlərindəndir. Qolu düz və dirsəkdən bir az aşağı, yaxası açıq biçilib tikilirdi. Bütün kənar tikiş xətləri və ətəklər boyunca çox zəngin naxış və bəzəklərlə bəzədilirdi. Küləcə, əsasən, qalın məxmər və tafta parçalardan tikilirdi və üst tumanın ətək bəzəyi ilə eyni cür bəzədilirdi. Bəzək üçün müxtəlif tikmələrdən - güləbətin tikmə, bafta, zəncirə, qaragöz, sərmə, muncuqlu tikmə, piləkli doldurma və s. istifadə edilirdi.

Naxçıvan geyimləri içərisində müxtəlif taxtalı tuman növləri olmuşdur. Tumanın ətəyinə, adətən, atlas və ya zərli parçadan qat payı tikilir. Eləcə də tumanın ətəyi burma gümüş, zəncirə, toz muncuq və piləklə bəzədilirdi.

Naxçıvan milli geyimlərində əl işlərinin səliqəsi, müntəzəmliyi yüksək bədii zövqdən, milli-mənəvi dəyərlərin zənginliyindən xəbər verir. Eləcə də geyim mədəniyyətinin bu qədər zəngin olmasında qadın əməyinin böyük rolu olduğunu xüsusi qeyd etməliyik. Onlar geyimləri təkcə biçib-tikməklə kifayətlənməmiş, onların daha da cəlbedici görünməsi üçün xüsusi bəzəklər vurmuşlar. Bu bəzəklərin çoxu naxışlardan ibarət olduğundan onları yalnız ipək saplarla tikirdilər. Bu da onların yüksək zövqü, qabiliyyətləri sayəsində əmələ gəlmişdir.

Bəzəklər maddi mədəniyyətin mühüm elementlərindən biri kimi "ictimai təbəqələr arasında sosial bərabərsizliyi daha dolğun şəkildə əks etdirməklə, bəhs olunan dövrün xüsusiyyətlərini, xalqın tərzini və məişətini, lokal və etnik özünəməxsusluğunu, etnik-mədəni təması və türk xalqları arasında etnogenetik əlaqələri, yaş dövrünün ayrı-ayrı pillələrində bəzəklərdən istifadə edilməsində meydana gələn dəyişiklikləri və s. özündə daha dolğun əks etdirir" [2, s.323].

Milli qadın geyimlərinin çoxunun adları eynidir, lakin onlar tikişinə və bəzək növlərinə görə bir-birindən fərqlənir. Qədim dövrlərdə Azərbaycan xalqı baş geyimlərindən də istifadə etmişlər. Baş geyimlərindən yaylıq, papaq, çalma, təpəlik, dingə, araqçın və s. misal göstərmək olar. Üst geyimləri kimi baş geyimlərində də bəzəklərdən istifadə edilmişdir. Baş geyim bəzəklərinə "alınlıq", "üzlük", "qarmaq", "düyməcə" və s. kimi bəzək növləri daxildir.

Azərbaycanın Gəncəbasar, Bakı-Şirvan, Qarabağ, Şəki-Zaqatala və Qərb bölgələri üçün daha xarakterik baş geyim növü olan araqçınlar həm tikmə növləri ilə, həm də taxma və tikmə

bəzəklərlə tərtiblənirdi. Qadın araqçınları kişi araqçınlarına nisbətən gödək olub, başda telbasan rolunu oynayır, eyni zamanda kalağayının başdan sürüşüb düşməsinin qarşısını alırdı [3, s.132].

Naxçıvanda kasıb ailələrdə qadınlar iki yaylıqdan istifadə edirlər. Zadəgan ailələrində isə alt yaylığı araqçın əvəz edirdi. Kasıb ailələrdə başa bağlanan qəşbəndin üstündən kalağayı bağlanırdı. İmkanlı ailələrdə bəzəkli araqçınlardan və ya qızıl-gümüş başlıqlardan istifadə edilirdi. Yaylıqlar isə bunlara xüsusi qiymətli baş sancağı vasitəsilə bərkidilirdi. Belə ailələrdə sinəni çox vaxt yaylıqla deyil, qızıl boğazaltının asma silsilələri ilə örtürdülər. Bu halda başlığa və ya araqçına bərkidilmiş örpək arxaya atılırdı.

Geyim dəstləri sırasında vacib detallardan biri olan ayaq geyimləri də geyim mədəniyyətimizdə böyük yer tutmuşdur. Nisbətən varlı, imkanlı ailələrdə belə ayaq geyimləri fəsilə görə dəyişilirdi. Ayaq geyimləri, adətən, dəridən, bəzən də keçədən hazırlanırdı. Qoyun dərisindən ayaqqabı, yunundan isə müxtəlif parçalar toxunaraq geyimlərin hazırlanmasında istifadə olunub. Heyvan dəriləri əvvəlcə aşınır, sonra müxtəlif ayaq ölçülərinə görə kəsilərək hazırlanırdı. Ən çox istifadə olunan ayaq geyimi isə "çarıq" adlanırdı.

Qadın ayaq geyimlərində "çust" adlanan, adətən dəridən hazırlanan ayaq geyiminə rast gəlinirdi. Bundan əlavə, ayaq geyimlərində evdə geyinmək üçün corab toxuyaraq istifadə etmişlər. Kişilər üçün isə bu cür geyimi eyni rəngdə, adətən tünd rənglərdən istifadə olunaraq tikilən "patava" adlanan ayaq geyimi olmuşdur.

Naxçıvan milli geyim mədəniyyəti şübhəsiz ki, əsrlər boyu olduğu kimi, bu gün də özünün spesifik xüsusiyyətlərini qoruyub saxlayır və gələcək nəsillərə bu geyimlərin konstruksiyasından istifadə edərək yaddan çıxarmamaq tövsiyə edilir.

## ƏDƏBİYYAT


1. Vəliyev F. Geyimlər və bəzəklər, Azərbaycan Milli Ensiklopediyası. Bakı: 2007
2. Abdulova G. "Azərbaycan qadın geyim bəzəkləri". Azərbaycan xalçaları. Bakı: 2017. cild 7, № 22. Bünyadova Ş. "Azərbaycan atalar sözlərində geyim və bəzəklərin əksi". Azərbaycan xalçaları. Bakı: 2016. cild 6, № 19


## SUMMARY


**Rasmiye Tagiyeva**


## TECHNOLOGY OF CONSTRUCTION OF NATIONAL DRESSES


Clothing protects a person's body from heat, cold, dust, etc. in the environment. created to protect against such effects. Clothes are mainly made of natural and artificial materials. Clothes are not only a means of protecting the human body, but also a means of decoration. Therefore, as the society goes through each stage of historical development, as people's worldview changes, the forms of clothing also change at each stage.

The article talks about the construction of national clothes, their preparation, and the technology of patterns sewn on these clothes for the purpose of decoration. The purpose here is to investigate the types of national clothing, the richness of ornaments, and the types of headdresses and convey them to future generations.

Also, the article talks about the development, preservation and promotion of Nakhchivan national costumes as an example of culture. In this ancient place, it is possible to follow the combined rhythm of historical clothing styles along with modern clothing. The national costumes

of Nakhchivan have been cut and sewn since ancient times, and they differed from others with their style features.

***Key words:*** *National, decoration, clothing, pattern, hat, scarf*


## РЕЗЮМЕ

**Расмие Тагиева**

## ТЕХНОЛОГИЯ ПОСТРОЕНИЯ НАЦИОНАЛЬНЫХ ПЛАТЬЕВ

Одежда защищает тело человека от жары, холода, пыли и т. д. окружающей среды. создан для защиты от подобных воздействий. Одежда в основном изготавливается из натуральных и искусственных материалов. Одежда – это не только средство защиты тела человека, но и средство украшения. Поэтому по мере того, как общество проходит каждый этап исторического развития, по мере изменения мировоззрения людей, на каждом этапе изменяются и формы одежды.

В статье рассказывается о конструкции национальной одежды, ее изготовлении и технологии выкройки, нашиваемой на эту одежду с целью украшения. Цель работы — исследовать виды национальной одежды, богатство орнаментов, виды головных уборов и передать их будущим поколениям.

Также в статье говорится о развитии, сохранении и популяризации национальных костюмов Нахчывана как образца культуры. В этом древнем месте можно проследить сочетание исторических стилей одежды и современной одежды. Национальные костюмы Нахчывана кроили и шили с древних времен и отличались от других своими стилевыми особенностями.


***Ключевые слова:*** *Национальный, украшение, одежда, узор, шапка, платок*